# *Lissabon sammiti:* Ermənistanın ağır məğlubiyyətinin başlanğıcı




***Hər bir dövlətin uğurunun böyük ölçüdə onun liderlərinin bilik və bacarıqlarından asılı olması heç kimə sirr deyil. Məhz ulu öndər Heydər Əliyevin uzaqgörənliyi, onun müdrikliyi və rəhbərlik istedadı böyük siyasi xadimə 90-cı illərin əvvəllərində yaranmış vəziyyətdə Cənubi Qafqazı bitmək bilməyən müharibələr ərazisinə çevirə biləcək Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində düzgün yol tapmağa imkan vermişdi. Şübhəsiz, bu gün Azərbaycan dövlətinin hərbi və siyasi meydanda qələbə qazanması ulu öndər Heydər Əliyevin əsasını qoyduğu qabaqlayıcı və praqmatik xarici siyasətin Prezident İlham Əliyev tərəfindən böyük məharətlə həyata keçirməsi nəticəsində mümkün oldu.***

Şəxsiyyət amili istənilən münaqişənin inkişaf yollarını müəyyən edən həlledici faktorlardan biri hesab olunur. Azərbaycan xalqının tarixində ümummilli lider Heydər Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə verdiyi töhfələr əvəzsizdir və tarixin səhifələrindən heç vaxt silinməyəcəkdir. Heç kimə sirr deyil ki, məhz ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra qısa zaman kəsiyində Ermənistanın dövlət səviyyəsində apardığı böhtanlara və yalanlara qarşı tutarlı cavablar verilmiş və milli maraqlarımızın təmin olunmasına yönəlmiş xarici siyasət yürüdülməyə başlanılmışdı.

Məlumdur ki, ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanın rəhbərliyini respublika üçün ən ağır və çətin dövrdə qəbul etmişdi. 1992-ci ilin mart ayında ATƏT münaqişənin həllində vasitəçi vəzifəsini öz üzərinə götürsə də, "mərhələli" nizamlama konsepsiyası qəbul etmiş Minsk qrupu yaradılsa da, erməni yaraqlılarının hərbi əməliyyatları dayandırılmamışdı. Belə mürəkkəb şəraitdə ümummilli lider Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, 1994-cü ilin may ayında isə Dağlıq Qarabağ münaqişəsi zonasında atəşkəs əldə etmək üçün əlindən gələni əsirgəməmişdi.

Rusiya, İran və Türkiyə kimi regional aktorlar ilə münasibətlərini yüksək səviyyəyə yüksəldən ulu öndər, eyni zamanda, həm Şərq ölkələrilə, həm Qərbi Avropa dövlətlərilə, həm də ABŞ ilə münasibətlərini gücləndirməyə müvəffəq olmuşdu. Məhz ümummilli lider Heydər Əliyevin belə fəal xarici siyasət yürütməsi sayəsində Azərbaycan Dağlıq Qarabağ münaqişənin həllində əlverişli diplomatik üstünlük əldə etmək imkanı qazanmışdı. Belə ki, dünya birliyi ərazi mübahisəsinin məhz Azərbaycan ilə Ermənistan arasında getdiyini qəbul etmişdi. Avropa Şurasının da münaqişəni Ermənistanla Azərbaycan arasında ərazi mübahisəsi kimi tanımasına nail olan ulu öndər Heydər Əliyev ölkəmizin mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirmişdi.

1996-cı ilin dekabrında Lissabon Zirvə görüşündə ziddiyyətlərin dərinləşməsinin ən kəskin təzahürü "veto müharibəsi"olmuşdu. Qeyd etmək yerinə düşər ki, 2-3 dekabr 1996-cı ildə 52 Avropa dövlətinin, ABŞ-ın, Kanadanın və 10 Afrika-Asiya dövlət başçılarının müşahidəçi statusunda iştirakı ilə ATƏT-in dövlət və hökumət başçılarının Lissabon görüşü keçirilmişdi. Lissabon görüşündə Qafqaz regionu, xüsusən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilk dəfə yüksək səviyyədə geniş müzakirə olunmalı idi. Təsadüfi deyildi ki, Lissabon Zirvə görüşü ərəfəsində ümummilli lider Heydər Əliyev Avropa və Şimali Amerikanın dövlət və hökumət başçılarına ATƏT prinsiplərinə, BMT Nizamnaməsinə və beynəlxalq hüquqa ciddi əməl edilməsinə əsaslanan münaqişənin həlli üçün optimal formulu əks etdirən xüsusi bir mesaj göndərmişdi. Bu formul Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağın Azərbaycanın tərkibində muxtariyyət statusu və Dağlıq Qarabağ əhalisi üçün təhlükəsizliyə zəmanət elementlərini əhatə edirdi. Münaqişənin həllinin bu şərtləri Lissabon Bəyannaməsinin 20-ci maddəsinə daxil edilmişdi. Bu bəyanat Lissabon sammitinin sənədlərinə daxil edilmiş və bununla da Azərbaycanın böyük diplomatik qələbəsini təsdiqləmişdi. Çünki bununla ilk dəfə olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prinsipləri təsdiq edilmiş, ATƏT-in Minsk qrupunun fəaliyyətinin siyasi-hüquqi konturları müəyyən olunmuşdu.

Ancaq Ermənistan Lissabon Bəyannaməsinin 20-ci maddəsini bloklamışdı, ona görə ki, erməni diplomatiyası işğal altındakı ərazilərin azad edilməsi müqabilində Dağlıq Qarabağın müstəqilliyinə nail olmağa imkan verən formulu dəstəkləyirdi. Lakin Lissabon sammitində qəbul olunmuş yekun sənəd erməniləri belə perspektivdən məhrum etdi. Ermənistanın keçmiş rəhbərləri indi etiraf edirlər ki, Lissabon sammiti rəsmi İrəvanın böyük diplomatik məğlubiyyəti kimi tarixə düşdü.

Lissabon sammitinin Azərbaycan üçün əhəmiyyətini ulu öndər Heydər Əliyev 30 noyabr 1996-cı ildə Portuqaliyaya yola düşməzdən əvvəl Binə Hava Limanında jurnalistlərə verdiyi açıqlamada bildirmişdi. Ümummilli lider açıqlamasında vurğulamışdı ki, zirvə görüşünə böyük əhəmiyyət verir, o, həmçinin Budapeştdən Lissabon sammitlərinə qədərki dövrü də müsbət qiymətləndirmişdi.

Ulu öndər 2 dekabr 1996-cı il tarixli Zirvə görüşündəki nitqində Dağlıq Qarabağ münaqişəsi, erməni təcavüzü haqqında ümumi məlumat vermiş, əldə edilmiş atəşkəs rejiminin elan olunmasını dəstəkləmiş və sülh müqaviləsi bağlananadək Azərbaycanın atəşkəs rejiminə əməl edəcəyini bildirmişdi. Bununla yanaşı, Heydər Əliyev çıxışında Ermənistan tərəfinin Dağlıq Qarabağ münaqişəsində məqsədini təcavüzün nəticələrini qanuniləşdirmək və Azərbaycan dövlətinin ərazisində ikinci erməni dövləti yaratmaq niyyəti kimi qiymətləndirmişdi. Ulu öndər sammitdəki nitqində iştirakçı dövlətlərin başçılarına bəyan etmişdi ki, belə hallara yol verilməyəcəkdir.

Lissabon Zirvə görüşündə çıxış edərək Ermənistan prezidentini və erməni xalqını sülhə səsləyən böyük siyasi xadim Heydər Əliyev ATƏT-in bütün üzvlərinə müraciətində onları Dağlıq Qarabağ məsələsinin həllinə kömək göstərməyə də çağırmışdı: “Mən ATƏT-in Lissabon zirvə görüşünün iştirakçısı olan dövlət və hökumət başçılarına üz tutub onlardan xahiş edirəm ki Avropada sürəkli və viranedici regional münaqişələrdən biri olan Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə aradan qaldırılması üçün səylərini əsirgəməsinlər. Qitəmizdə sülh, sabitlik və xalqların firavanlığı naminə bütün tədbirləri görmək bizim müqəddəs borcumuzdur”.

Bütün bu çağırışlara baxmayaraq, Ermənistan nümayəndə heyəti Lissabon Bəyannaməsinin 20-ci maddəsinə Heydər Əliyevin irəli sürdüyü prinsiplərin daxil edilməsinə veto qoymuşdu. Buna cavab olaraq Azərbaycan dövlətinin başçısı ATƏT-in Lissabon sammitinin bütün sənədlərinə veto tətbiq edərək, prinsipləri ATƏT-in fəaliyyətində olan sədrinin ayrıca bəyanatında açıqlanmasına nail olmuşdu. ATƏT-in rəsmi sənədlərinə daxil olan bu bəyanatda göstərilirdi ki, ATƏT-in Zirvə görüşündə iştirak edən 53 üzv dövlət bu müddəaları bəyənir. Ermənistanda Lissabon sammitindən sonra bəziləri hesab edirdilər ki, Azərbaycan təbliğat müharibəsində qalib gəldi və Ermənistanın təcavüzkar olduğunu dünyaya sübut edə bildi. Digərləri bu diplomatik qələbəni Heydər Əliyevin siyasi məharəti ilə izah edir və o vaxtkı prezident Levon Ter-Petrosyanı ümummilli liderə uduzmaqda günahlandırırdılar.

Qeyd etmək lazımdır ki, Lissabona qədər Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının beynəlxalq səviyyədə tanınmış hüquqi bazası yox idi. ATƏT-in ümumi prinsipləri və BMT-nin Nizamnaməsi fəaliyyət göstərmirdi, onu rədd edirdilər və deyirdilər ki, hər bir münaqişənin öz xüsusiyyəti var. Lissabona qədər Ermənistan Rusiya, ABŞ və dünyanın digər ölkələrindəki lobbisindən istifadə edərək, Dağlıq Qarabağa öz hüququnu qanuniləşdirməyə və onun müstəqilliyinə nail olmağa ümid edirdi. Lissabondan sonra ermənilərin bu ümidi puç oldu. Yuxarıda qeyd olunan üç prinsip Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasının hüquqi bazası oldu və tamamilə birmənalı şəkildə Ermənistana anlatdı ki, münaqişə Azərbaycanın ərazi bütövlüyünü pozmadan həll olunmalıdır.

Xatırladaq ki, Ermənistanda çevriliş yolu ilə hakimiyyətə gələn qüvvələr (1998-ci ilin fevral ayı) münaqişənin "paket" konsepsiyasını dəstəkləyirdilər. Amma təkcə vasitəçilər və Azərbaycan tərəfi deyil, Ermənistanın bəzi siyasi xadimləri də "paket" variantının qeyri-real olduğunu etiraf edirdilər. Ən əsası, Lissabonda baş verənlər o qədər gözlənilməz olmuşdu ki, müstəqil dövlətin ərazilərinin ilhaqını qanuniləşdirməyə haqq qazandıran erməni milli şüuru reallıqla barışmaq istəmirdi.

Ancaq ermənilərdən fərqli olaraq dünyanın bir çox ölkəsində Lissabon Zirvə görüşünün qərarlarının Qafqazda sülh və sabitlik üçün çox böyük əhəmiyyətə malik olduğunu anlayırdılar. Lissabon sammitində əldə olunmuş diplomatik qələbə ulu öndər Heydər Əliyevin bütün Qafqaz xalqları qarşısında və əlbəttə ki, ilk növbədə, təcavüzün qurbanı olmuş Azərbaycan xalqı qarşısında çox böyük qələbəsidir. Lissabon sammitinin əhəmiyyətini qiymətləndirərkən ulu öndər Heydər Əliyev bildirmişdi ki, “Lissabon Zirvə görüşünün Azərbaycan üçün böyük əhəmiyyəti bir də ondan ibarətdir ki, biz həmin toplantıda Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyətini açıb həm zirvə görüşünün iştirakçılarına, həm də bütün dünya ictimaiyyətinə bildirdik”.

Şübhəsiz, bu gün Azərbaycan dövlətinin hərbi və siyasi meydanda qələbə qazanması ulu öndər Heydər Əliyevin əsasını qoyduğu qabaqlayıcı və praqmatik xarici siyasətin Prezident İlham Əliyev tərəfindən böyük məharətlə həyata keçirilməsi nəticəsində mümkün oldu.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***